# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# SƏRƏNCAM

**Çoxgöstəricili Klaster Sorğusunun (MICS) keçirilməsi ilə əlaqədar İstiqamətləndirici Komitənin yaradılması haqqında**

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 14 fevral tarixli 3672 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2018-2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı"nın 5.1.3.1-ci yarımbəndinə əsasən:

1. Ölkədə ana və uşaqların sosial rifah vəziyyətinin qiymətləndirilməsi və Dayanıqlı İnkişaf Məqsədləri ilə müəyyən edilmiş hədəflərə çatmanın ölçülməsi üçün beynəlxalq müqayisəliliyi təmin edən müvafiq statistik məlumatların əldə edilməsi məqsədilə keçiriləcək Çoxgöstəricili Klaster Sorğusu (bundan sonra – Sorğu) ilə əlaqədar aşağıdakı tərkibdə İstiqamətləndirici Komitə yaradılsın:

**İstiqamətləndirici Komitənin sədri**
Azərbaycan Respublikası Baş nazirinin müavini

**İstiqamətləndirici Komitə sədrinin müavini**
Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin sədri

**İstiqamətləndirici Komitənin üzvləri:**
Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini
Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini
Azərbaycan Respublikası səhiyyə nazirinin müavini
Azərbaycan Respublikası daxili işlər nazirinin müavini
Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini
Azərbaycan Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini
Azərbaycan Respublikası ədliyyə nazirinin müavini
Azərbaycan Respublikası energetika nazirinin müavini

HÜQUQ VƏ QANUNVERİCİLİK ŞÖBƏSİ

Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini
Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini
Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin müavini
Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi sədrinin müavini
İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə heyəti sədrinin müavini
"Azərsu" Açıq Səhmdar Cəmiyyəti sədrinin müavini
"Azərişıq" Açıq Səhmdar Cəmiyyəti sədrinin müavini
"Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyəti sədrinin müavini
"Azəriqaz" İstehsalat Birliyi sədrinin müavini
Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondunun (UNİCEF) Azərbaycan Respublikasındakı Nümayəndəliyi.

2. Bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş dövlət orqanları (qurumları) İstiqamətləndirici Komitədə təmsil olunacaq nümayəndələri barədə məlumatı 5 (beş) iş günü müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsinlər.

3. İstiqamətləndirici Komitə:

3.1. Sorğunun vaxtında və keyfiyyətlə keçirilməsini təmin etmək məqsədilə zəruri tədbirlər görsün;

3.2. Sorğunun keçirilməsi ilə bağlı aidiyyəti mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, idarə, müəssisə və təşkilatların fəaliyyətini əlaqələndirsin;

3.3. Sorğunun büdcəsini, onun keçirilməsinə dair tədbirlər planını, müvafiq sorğu anketlərini təsdiq etsin;

3.4. Sorğuya hazırlıq işlərinin görülməsinə və onun keçirilməsinə nəzarət etsin;

3.5. Sorğuya hazırlıq və onun aparılması ilə əlaqədar qarşıya çıxan və bu Sərəncamla tənzimlənməyən məsələlərə dair Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı tələb olunduqda təkliflərini təqdim etsin.

4. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi:

4.1. Sorğunun vaxtında və keyfiyyətlə keçirilməsinə, bununla bağlı işlərin gedişatına dair İstiqamətləndirici Komitəyə təkliflərin verilməsi məqsədilə bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş dövlət orqanlarının (qurumlarının) nümayəndələrindən ibarət, zərurət yarandığı təqdirdə qanunvericiliklə müəyyən olunmuş qaydada yerli və xarici ekspertləri, mütəxəssisləri, beynəlxalq təşkilatları, elmi müəssisələri və ictimai birlikləri cəlb etməklə Texniki Komitə yaratsın;

4.2. Texniki Komitə tərəfindən Sorğunun büdcəsinin, onun keçirilməsinə dair tədbirlər planının, müvafiq sorğu anketlərinin layihələrini və Sorğunun nəticələrinə dair ilkin hesabatın hazırlanaraq təsdiq edilməsi üçün İstiqamətləndirici Komitəyə təqdim olunmasını təmin etsin;

4.3. Sorğunun həyata keçirilməsinin əhəmiyyəti, onun mütəşəkkil keçirilməsində vətəndaşların rolu, köməyi və digər məsələlər haqqında kütləvi informasiya vasitələrində xüsusi maarifləndirici materialların yayımlanması üçün müvafiq tədbirlər görsün;

4.4. Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondunun (UNİCEF) Azərbaycan Respublikasındakı Nümayəndəliyi ilə birgə sorğuya cəlb ediləcək şəxslər üçün təlimlər təşkil etsin.

HÜQUQ VƏ QANUNVERİCİLİK ŞÖBƏSİ

5. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi seçmə şəbəkəsinə daxil edilmiş ev təsərrüfatının üzvü olan 2 yaşadək uşaqların immunizasiya ilə bağlı məlumatlarına Sorğunun aparılmasına cəlb olunan şəxslərin əlçatanlığını təmin etsin.

6. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının şəhər, rayon, şəhər rayonlarının icra hakimiyyətləri Sorğunun həyata keçirilməsinə hazırlıq və onun aparılması ilə əlaqədar nəzərdə tutulmuş tədbirlərin vaxtında və mütəşəkkil yerinə yetirilməsini, mövcud çətinliklərin operativ surətdə aradan qaldırılmasını təmin etmək məqsədilə zəruri tədbirlər görsünlər.

7. Bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş dövlət orqanları (qurumları) Sorğunun nəticələrinə dair hesabat təsdiq edildikdən sonra 3 (üç) ay müddətində Sorğunun nəticələrindən irəli gələn məsələlərlə bağlı aidiyyəti üzrə təkliflərini Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsinlər.

8. "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti Azərbaycan Respublikasında Sorğunun həyata keçirilməsinə hazırlıq və onun aparılması ilə bağlı radio və televiziyada xüsusi verilişlər təşkil etsin və bununla bağlı həyata keçirilən tədbirlərin geniş işıqlandırılmasını təmin etsin.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatı
ÜMUMİ ŞÖBƏ

Bakı şəhəri, "17" avqust 2022-ci il

№ 526s

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
Daxilolma № 333
2 vərəq
17 08 2022

34